# Azərbaycan heykəltəraşlığında Heydər Əliyevin portretləri

**Nigar Məmmədova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Sənətşünaslıq fakültəsinin magistrantı
E-mail: *nigarmammadova.im@gmail.com*

Bildiyimiz kimi, ölkənin istər məşhur rəssamları, istərsə də görkəmli tişə ustalarının yaradıcılığında tarixi şəxsiyyətlər, ölkənin ictimai-siyasi, mədəni xadimləri, xalq qəhrəmanları həmişə ən vacib və əhəmiyyətli obrazlar kimi çıxış etmişlər. Bu tendensiya heykəltəraşlıq sənətində xüsusən özünü büruzə verir desək, yanılmarıq. Belə obrazlardan biri də müasir Azərbaycan dövlətinin qurucusu, nəhəng siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin obrazıdır. Heydər Əliyev həmişə sənətə və sənətkarlara qayğı və diqqət göstərmiş, sənətkarların çoxu ilə birbaşa ünsiyyət və dostluq münasibətləri saxlamışdır. Dahi şəxsiyyəti, səmimiyyəti, yerinə yetirdiyi – xalqın qurtuluşunu və dövlət quruculuğunu şərtləndirən vacib tarixi və siyasi missiyası onu bütün sənətkarlar kimi, heykəltəraşlarımızın da əsərlərinin ən əhəmiyyətli və diqqət yetirilən obrazına çevirmişdir. Məhz həmin səbəb heykəltəraşlıq sahəsində istər ölkəmizdə, istərsə də dünyada kifayət qədər dəzgah və monumental abidələrinin ucaldılmasına zəmin yaradan amillərdəndir. Ölkədə yerləşən çoxsaylı ali təhsil ocaqlarında, habelə müxtəlif dövlət idarələrində, parklarda, saray və konsert komplekslərində, Ümummilli liderimiz Heydər Əliyevin əsrarəngiz portret heykəl nümunələri mövcuddur. Azərbaycanlı tişə ustaları ilə yanaşı, dünyanın kifayət qədər nüfuzlu heykəltəraşları da H.Əliyevin portret əsərlərini yaratmışlar.

Öz yaradıcılığında Ümummilli lider H.Əliyev obrazına dəfələrlə müraciət etmiş dahi heykəltəraş, Azərbaycan heykəltəraşlığının ikonu hesab olunan akademik Ömər Eldarovdur. O, dəzgah heykəltəraşlığında H.Əliyevin ilk büstünün müəllifi olmaqla da bir ilkə imza atmışdır.

Ömər Eldarovun hələ gənc ikən peşəkar heykəltəraş kimi keçmiş sovet ölkələrində kifayət qədər tanınması ilə yanaşı, "dahi azərbaycanlı" milli kimliyi də Ulu Öndərin ilk büstünün hazırlanmasının məhz ona həvalə edilməsinin vacib səbəblərindən olmuşdur. Əsrarəngiz sənət əsərini daha da möhtəşəm edən səbəblərdən biri də ümumilli liderimiz cənab Heydər Əliyevin birbaşa naturada saatlarla əyləşməsi, tişə ustamızla söhbət etməsi və heykəltəraşın onun eskizini naturadan hazırlamasıdır. H.Əliyevin fikrincə, naturadan işlənilmiş əsər daha uğurlu nəticələnə bilərdi. Beləliklə, Ümummilli lider tişə ustası Ömər Eldarova teleqram göndərərək onu Moskvaya dəvət etmişdir. Dahi sənətkar bu dəvəti qəbul edir və Rusiyaya yola düşür. Büstün hazırlanması zamanı H.Əliyev 2 saatlıq müddət ərzində müəllifin naturadan işləməsi üçün Moskva emalatxanalarının birində qalaraq, Ömər Eldarovla söhbət etmiş və onun əsəri daha dəqiq və gözəl yaratmasına zəmin hazırlamışdır. Büstə nəzər saldığımızda pyedestalın üzərində Sosialist Əməyi Qəhrəmanı mükafatını simvolizə edən iki ulduz və sovet hakimiyyəti üçün xarakterik rus əlifbası ilə "Алиев Гейдар Алиевич – Дважды герой социологического труда" (Heydər Əlirza oğlu Əliyev – iki dəfə Sosialist Əməyi Qəhrəmanı) yazısını görə bilərik. Obrazın üz cizgilərində liderimizin özünə əmin və qürur hissi ilə dolu baxışları əks olunub. Heykəltəraş Ömər Eldarov tərəfindən yaradılmış H.Əliyevin büstü 1987-ci ildə Naxçıvan şəhərində ucaldılmışdır. Söz açdığım heykəltəraşlıq nümunəsi Azərbaycanda və ümumilikdə, dünyada Heydər Əliyevə ithaf edilmiş ilk əsər sayılır. Sözsüz ki, Ömər Eldarov bir tişə ustası kimi Ümummilli liderimizin yalnız büstünü yaratmaqla kifayətlənmir. İllərboyu bu obraz üzərində dəfələrlə işləyərək əsərlərini daha da təkmilləşdirmiş və bu əsərlər şəhərimizin ən gözəl sənət əsəri nümunələrinə çevrilmişdir.

Sənətkarın Ulu Öndərə həsr etdiyi növbəti əsəri 2001-ci ildə ölkəmizdən kənarda, qardaş Türkiyənin Qars şəhərində Heydər Əliyevin adına parkda ucaldılmış büstdür. Yüksək ustalıqla hazırlanmış bu əsər Heydər Əliyevin sağlığında ölkə xaricində qoyulmuş ilk büst hesab olunur.

Ömər müəllimin bu qəbildən digər portret heykəltəraşlıq nümunəsindən biri isə 2008-ci ildə Ümummilli liderimizin yaşadığı ünvanın giriş divarında yerləşdirilmiş barelyefidir. Barelyefə nəzər saldığımızda bu sözləri oxuya bilərik: "Azərbaycan xalqının Ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan Respublikasının Prezidenti, Heydər Əlirza oğlu Əliyev 1962-1982 ci illərdə bu evdə yaşamışdır".

Dostunun vəfatından sonra da tişə ustası onun obrazlarını yaratmaqdan zövq alırdı. Ümummilli liderin abidələrini hazırlamaqla sanki dostuna olan borcunu qaytarır, eyni zamanda ölkədə heykəltəraşlıq sənətinə əsrarəngiz töhfələr verirdi.

Heydər Əliyevə həsr etdiyi digər büstün ərsəyə gəlməsi 2012-ci ilə təsadüf etmişdir. Növbəti göz oxşayan əsər Ümummilli liderimizin 90 illik yubileyinə həsr olunmuş sərgidə sərgilənmişdir. Xalq rəssamının H.Əliyevin xarakterinə nə dərəcədə bələd olduğunu bu əsəri izlədiyimiz zaman görə bilərik. Obrazın mahircəsinə yaradılması, cizgilərin dəqiqliyi, əsəri izləyən zaman orada həqiqətən xalq üçün həyatını həsr etmiş bir şəxsiyyətin, Ümummilli liderin təsviri açıq-aydın özünü büruzə verir. Söz açdığım büst ağ mərmərdən yonularaq 2012-ci ildə Milli İncəsənət Muzeyində sərgilənib və tamaşaçılar arasında böyük rəğbət qazanıb. Əsər hazırda da ölkə və dünya incəsənəti incilərinin sərgiləndiyi Azərbaycan Milli İncəsənət muzeyində qorunub saxlanılmaqdadır.


Ömər Eldarov Ümummilli lider Heydər Əliyevin büstünü işləyərkən

Yaradıcılığında Ümummilli lider Heydər Əliyev obrazına müraciət etmiş heykəltəraşlardan biri də görkəmli tişə ustası Münəvvər Rzayevadır. O, bu kontekstdə ilk qadın heykəltəraş hesab olunur. Azərbaycanın görkəmli şəxsiyyətlərinin, yazıçı və mütəfəkkirlərinin obrazlarını yüksək peşəkarlıqla yaradan tişə ustasının Ümummilli liderin xatirəsinə həsr etdiyi dəzgah heykəltəraşlıq əsəri xüsusilə diqqətəlayiqdir. Ümumilli liderin obrazını təcəssüm edən barelyef nümunəsi müəllifin zəngin yaradıcılığının son işlərindən biri hesab olunur. Əsərin yerləşdiyi məkan da uca şəxsiyyətin məqamı kimi yüksəklikdə – Qusar rayonundakı "Heydər Zirvəsi"ndədir. Özündə rəhbərin dərin mənalı üz cizgilərini əks etdirən barelyefin uzunluğu 82 sm, eni 59 sm, ümumi çəkisi isə 42 kq dan ibarətdir, 2 ay ərzində tuncdan hazırlanıb. Əsərin açılış tədbiri 1998-ci ildə baş tutub.

Azərbaycan heykəltəraşlıq sənətində Heydər Əliyev obrazını layiqincə yaratmış heykəltəraşlardan biri də professor Natiq Əliyevdir. Onun yaradıcılığına nəzər saldıqda Ümummilli liderimizə həsr olunmuş çoxsaylı heykəltəraşlıq əsərlərinə rast gəlmək mümkündür. Natiq Əliyev Ulu öndərin qürur, nəciblik və mərdlik keyfiyyətlərini ön plana çıxarmaq və bu obrazı özünəxas bir yanaşma ilə yaratmaqla öz adını ölkə heykəltəraşlığının qızıl fonduna yazdırmağa nail olmuşdur.

Heykəltəraşın yaradıcılığında Heydər Əliyevin xatirəsinə ithaf olunmuş büst əsərlərindən biri 2004-cü ilə aiddir. Bakı şəhərində, Ulu öndərin uzun illər çalışdığı Prezident Administrasiyasının binasında yerləşir. Əsərə diqqət yetirdikdə biz Heydər Əliyevin simasında aliliyi və əsl liderə xas olan ciddilik və müdrikliyi görə bilərik. Təbiidir ki, Heydər Əliyevin bir sıra heykəllərində bu cəhətlər ön planda özünü büruzə verir. Həmin prinsiplər ölkəmizdə H.Əliyev heykəllərini yaradan bir sıra tişə ustalarına xas olsa da, əsərlər bir-birindən müxtəlif cəhətlərlə də fərqlənməkdədir. Büstü gözəlləşdirən məqamlardan biri də dahi şəxsiyyətin üz ifadəsindəki özünə inamdır. Əsərin məhdud ölçülərinə baxmayaraq, bu qədər aliliyi, mürəkkəb ifadələri və eyni zamanda da asan anlaşılan amilləri, liderin mənəvi və psixoloji durumunu birləşdirməsi heykəltəraş Natiq Əliyevin professionallığından və obraza dərin hörmətindən irəli gəlir. Mərmərdən hazırlanmış əsərdə tişə ustası obrazlılığın əbədiləşməsinə kifayət qədər çalışmış və buna nail olmuşdur.

Natiq Əliyevin yaratdığı Heydər Əliyev obrazı yalnız ölkəmizdə deyil, eyni zamanda dünyanın bir sıra yerlərində də təqdim edilmişdir. Həmin əsərlərdən birinin təqdimatı 2004-cü ilə aiddir. Özbəkistanın Daşkənd şəhərində ucaldılmış büstün postamenti mərmərdən, Ümummilli liderin obrazı isə tuncdan tökülərək hazırlanıb. Bu tip büst heykəltəraşlıq nümunələri, adətən, şəxsiyyətin adını daşıdığı parklarda, habelə mədəniyyət mərkəzlərinin önündə ucaldılır. Qardaş Türkiyədə də Ulu öndərin büstü var. Heykəltəraşı Natiq Əliyev, memarı Fərhad Axundov olan büst heykəl Türkiyənin İstanbul şəhərində bürüncdən tökülmüşdür.

Tişə ustasının Ümummilli lider həyatdan köçdükdən sonra yaratdığı əsərlərindən biri 2005-ci ilə təsadüf edir. Həmin büstdə də liderə xas ali cəhətlər aydın ifadə olunub. Ulu öndərin ağ mərmərdən hazırlanmış büstünə nəzər saldıqda, məhz liderin cəsarətli baxışı ilə düşündürücü üz cizgiləri bu xalq və vətən üçün əlindən gələni əsirgəmədiyini vurğulayır. Natiq Əliyev yaradıcılıq kolleksiyasının öndə gedənlərindən hesab olunan bu əsər 2005-ci ildə Nazirlər Kabinetinin binasında yerləşdirilmişdir.

Ümumilikdə qeyd edə bilərik ki, siyasi və ictimai xadimlərin, yazıçı və şairlərin və bir sıra ön planda olan şəxsiyyətlərin büst və monumental əsərlərinin digər ölkələrdə ucaldılması möhkəm dostluq və qarşılıqlı əlaqələrin yüksək səviyyəsinin olmasının göstəricisidir. Bu kimi amillərin məhz heykəltəraşlıqda özünü büruzə verməsi, bu sənətin gücündən xəbər verir. Belə heykəllərdən biri (müəllif Natiq Əliyev) – Gürcüstanın Tibilisi şəhərində Ulu öndərimizin adını daşıyan parkda tuncdan tökülmüş büst xüsusi gözəlliyə malikdir. Özündə bütöv bədii-estetik dəyərləri cəmləyən və ölçülərinin kiçik olmasına baxmayaraq, görünüşü ilə obrazın bütöv psixologiyasını birləşdirən əsər tamaşaçıya şəxsiyyətin birbaşa daxili aləmini aşılayır. Bu məqam da heykəltəraş tərəfindən əsərin yaradılmasında əsas vacib amillərdən sayılır. Büst Ulu öndərimizin adını daşıyan parkın mərkəzində qərarlaşmışdır. Memarlıqla heykəltəraşlığın ideal həlli kimi görünən əsərin postamenti qara mərmərdəndir. Ümumilikdə isə postamentlə birlikdə ölçüsü 4 metrə çatır. Ulu öndərin adını daşıyan parkın və büstün açılışına Azərbaycan və Gürcüstan respublikalarının Prezidentləri İlham Əliyev və Mixail Saakaşvili, habelə

ölkəmizin və Gürcüstanın yüksək vəzifəli məmurları qatılmışlar. Memarı həmyerlimiz Fərhad Axundov olan parkın açılışı 12 may 2007-ci ilə təsadüf etmişdir.

Heykəltəraş Natiq Əliyevin yaradıcılığında Heydər Əliyev tematikasının xüsusi yer tutduğunu nəzərə aldıqda, tişə ustasının Ulu öndərimizin xatirəsinə həsr etdiyi digər bir dəzgah heykəltəraşlıq əsərindən söz açmaq yerinə düşər. Sözügedən əsər şəhərimizin bir sıra qəsəbələrində olduğu kimi Qaradağ rayonunda yaradılmış "Heydər Əliyev" muzeyində yerləşdirilmişdir. Siyasi xadimin bütövlükdə həyatı və siyasi fəaliyyətini, liderin çoxşaxəli fəaliyyətini təbliğ edən muzeydə 195 ədəd fotoşəkil, 94 kitab mövcuddur. Təbii ki, Ulu öndərin adını daşıyan muzeydə onun büstü də var. Əsər üzərində gərgin yaradıcılıq axtarışları aparan görkəmli tişə ustası, obrazı bürüncdən hazırlamışdır. Siyasi xadimə ithaf etdiyi digər əsərlərdə olduğu kimi tişə ustası obrazın daxili aləmini, psixoloji durumunu özündə tam əks edən bir incəsənət əsəri yaratmağa nail olmuşdur. Əsərin təntənəli açılışı isə Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə baş tutub.

Ömər Eldarov, Natiq Əliyevlə yanaşı, öz yaradıcılığını Heydər Əliyev obrazları ilə zənginləşdirən heykəltəraşlardan biri də Xalq rəssamı Akif Əsgərovdur. Akif Əsgərovun yaradıcılığına xas bədii plastikanın mahiranə şəkildə vurğulanması bir sıra əsərlərində cəmləmişdir. Akif Əsgərov Natiq Əliyev kimi, dahi şəxsiyyətin obrazlarını dəfələrlə ölkəmizdə və xaricdə yaratmağa nail olmuşdur. Akif Əsgərov yaradıcılığının göz oxşayan əsərlərindən birinin təqdimat mərasimi 2009-cu ilə təsadüf edir. Bakıda Milli Məclis binasında yerləşdirilmiş siyasi xadimin büstü bir sıra məqamları ilə diqqət çəkir. Əsər qranit və tuncdan hazırlanıb. Diqqət yetirdikdə Heydər Əliyevə xas olan uzaqgörənlik və lider xüsusiyyətlərini sezə bilərik. Akif Əsgərovun müəllifi olduğu əsərdə canlılıq, liderə xas əzmkarlıq, habelə qətiyyətli sərt baxış heykəltəraşlıq üçün olduqca əhəmiyyətli sayılan canlı prizma yaratmışdır. Akif Əsgərovun Heydər Əliyevə ithaf etdiyi əsərlər ölkə hüdudlarını aşıb. Tişə ustası qardaş ölkə Türkiyədə, habelə, Misir və Gürcüstan respublikalarında da dahi şəxsiyyətin obrazını yaradaraq, həmin ölkələrin incəsənətlərinə gözəllik bəxş etmiş və Ümummilli liderimizin xatirəsini əbədiləşdirmişdir.

Heydər Əliyevə ithaf olunmuş büst heykəllərinin əksəriyyəti bir məqamı ilə bir-birinə bənzəməkdədir. Bu məqam da sırf siyasi xadimin geyimi ilə əlaqələndirilir. Belə ki, istər Ömər Eldarov tərəfindən yaradılmış Ümummilli liderin ilk büst əsəri, istərsə də sonrakı dövrlərdə müxtəlif tişə ustalarımız tərəfindən müraciət olunmuş obrazlara nəzər saldıqda əsərlərin əksəriyyətində siyasi xadimin ciddi klassik üslublu geyimi özünü büruzə verir. Rəhbərin təsvir edilmiş həyatının hər bir parçasında xalq üçün çalışdığı və özündən çox başçısı olduğu ölkənin uğurları üçün səy göstərməsi, obrazın psixoloji tutumudur ki, bu amil də müxtəlif tişə ustaları tərəfindən daim xüsusilə vurğulanmışdır.

Heydər Əliyevin ölkəmizin müxtəlif mədəniyyət ocaqlarında, dövlət strukturları, orta və ali təhsil ocaqlarında çoxsaylı büst heykəlləri mövcuddur. Müxtəlif yerli və xarici tişə ustaları tərəfindən professionallıqla hazırlanmış büst heykəllərlə Heydər Əliyev sarayının daxilində, Azərbaycan Dövlət İncəsənət Muzeyində, Dövlət Təhlükəsizlik Xidmətinin binasında, Xüsusi Dövlət Mühafizə Xidmətində, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Heydər Əliyev Muzeyi, Heydər Əliyev Fondunun binalarında və bir çox mühüm dövlət strukturlarının inzibati binalarında qarşılaşmaq mümkündür ki, bu da öz-özlüyündə obrazın heykəltəraşlıq sahəsində olduqca aktuallığından irəli gəlmişdir. ❖

**Ədəbiyyat:**

1. Quliyev Rafiq. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, 2013.
2. Həbibbəyli, İsa Yeni tarixi epoxa: idealdan gerçəkliyə və böyük gələcəyə // Azərbaycan. - 2018.- 3 oktyabr.
3. http://www.philosopher.az/ Ömər Eldarov
4. Qacar G. Ömər Eldarov. Bakı, 2005.
5. Veysəlli N. Daşların poeziyası ( Heykəltəraş M.Rzayevanın yaradıcılığı haqqında). 1976, №7.

**Резюме**

Невозможно представить нашу культуру и искусство, а также городскую архитектуру без станковых или монументальных скульптур, посвященных образу Общенационального лидера Гейдара Алиева. В данной статье анализируются основные работы станковой скульптуры, посвященные Гейдару Алиеву.

**Ключевые слова:** Гейдар Алиев, Омар Эльдаров, Натиг Алиев, скульптура, образ, памятник.

**Summary**

It is impossible to imagine our culture and art, city architecture without sculpture works dedicated to national leader Heydar Aliyev. This article analyzes the main works of easel sculpture dedicated to Heydar Aliyev.

**Key words:** Heydar Aliyev, Omar Eldarov, Natiq Aliyev, sculpture, character, monument.